# İki ölkənin ordenini almış 21 yaşlı ulduz

## Oleq Stepkonun əsas hədəfi Rio-de-Janeyroda Azərbaycan bayrağını dalğalandırmaqdır

Lalə MUSAQIZI



**Onu Azərbaycanın idman həvəskarları ötən il Bakıda təşkil edilən ilk Avropa Oyunlarından sonra tanıdılar. Cəmi 160 sm boya malik olmasına baxmayaraq, bir çoxlarının qibtə edəcəyi uğurlara imza atıb. Həm öz ölkəsinin, həm də ölkəmizin adına medallar qazanıb. İki ölkənin ordeniylə təltif olunmaq hər idmançıya nəsib olmur. Özü də, cəmi 21 yaşında. Ancaq o, bunu da bacardı. Bu yazıda sizə idman gimnastikası yığmamızın üzvü Oleq Stepkodan söhbət açacağıq.**

### İKİ İDMAN ARASINDA QALAN OLEQ

Oleq Stepko 1994-cü il, martın 25-də Ukraynanın Zaporojye şəhərində dünyaya gəlib. Hələ kiçik yaşlarından idmana maraq göstərən balaca Oleq, iki idman növüylə birdən məşğul olmağa başlayır. O, Ukraynanın Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Gənclər İdman Məktəbində, Pavel Netrebanın rəhbərliyi altında idman gimnastikasıyla məşğul olurdu. Oleq idman gimnastikasıyla yanaşı, üzgüçülüyə də meyil edir. Hər iki idman növünə maraq göstərdiyindən, bir müddət eyni anda hər ikisiylə məşğul olur. Ancaq yetkinlik yaşına çatdıqda, bu idman növlərindən yalnız birinə üstünlük verməliydi ki, Oleq də seçimini idman gimnastikasının lehinə edir. O, sonradan seçimini belə əsaslandırmışdı: "Əvvəllər mən eyni vaxtda iki idman növü ilə məşğul olurdum - gimnastika və üzgüçülüklə. Daha sonra seçim etmək məcburiyyətində qaldım və gimnastikanı seçdim. Bəlkə də ina görə ki, bu idman növü üçün xüsusi keyfiyyətlərim vardı, əlavə olaraq məşqçilərim müəyyən nəticələr əldə edə biləcəyimi bildirmişdilər".

Həm Oleq, həm də məşqçiləri yanılmamışdılar. Ukraynanın "Ukraina" və "Metallurq" İdman Klubunda çıxış edən Stepko, idman gimnastikası üzrə yığmaya da cəlb edilir. Oleq qatıldığı ilk ciddi turnirdə ümidləri doğruldur.

O, 2010-cu ildə Sinqapurda keçirilən gənclərin olimpiya oyunlarını 2 qızıl və 2 gümüş medalla başa vurdu.

Cəmi bir il sonra, Tokioda təşkil edilən dünya çempionatında iştirak edən Stepko, uğursuzluqla üzləşir. O, komanda yarışlarında 5-ci olsa da, fərdi çıxışda 19-cu olur. Oleq bir il sonra Fransanın Monpelye şəhərində təşkil edilən Avropa çempionatını da komanda yarışlarında 5-ci kimi baş vurur.

2013-cü il Oleq üçün əlamətdar olur. Belə ki, o, həmin ilin aprel ayında Moskvada təşkil edilən Avropa çempionatında ilk ciddi uğurunu qazanır. Rusiya paytaxtındakı qitə birinciliyində paralel qollarla olan çıxışında qızıl medal qazanır. Moskvadakı uğur onun karyerasında bir növ dönüş anı olur. Stepko Avropa çempionatındakı uğurdan sonra Ukraynanın ən yaxşı idmançısı seçilir.

Oleq həm də Ukraynanın Klassik Özəl Universitetində təhsil alırdı. O, məhz universitetdə təhsil aldığı dövrlərdə tələbələr arasında təşkil edilən Universiadada iştirak edir. 2013-cü ildə Kazanda təşkil edilən Universiadada da medalsız qalmır. Komanda yarışlarında gümüş medal qazanan gimnast, fərdi yarışlarda at üzərindəki çıxışına görə bürünc medal qazanır.

Bu, Oleqin Ukrayna bayrağı altında qazandığı son uğur olur.

### AVROPA OYUNLARININ REKORDÇUSU

2014-cü ilin fevral ayında ölkəmizdən Stepkoya təklif gəlir. Oleq Azərbaycan üçün yarışmağa razı olur. Onun Azərbaycan bayrağı altında ilk ciddi sınağı isə Fransada olur. 2015-ci ilin aprel ayında bu ölkənin Monpelye şəhərində keçirilən Avropa çempionatında Oleq medala həsrət qalır. Baxmayaraq ki, o, buna çox yaxın idi. Stepko paralel qollarla olan çıxışını 4-cü pillədə başa vurdu.

Ancaq əsas sınaq qarşıda idi. Onun qarşısına qoyulan əsas tələb Bakıda keçirilən ilk Avropa Oyunlarında ölkəmizə medal qazandırmaq idi. Düzü, Azərbaycan bayrağı altında çıxış etdiyi ilk turnirdə yaşadığı uğursuzluqdan sonra çoxları buna inanmırdı. Ancaq əsas o idi ki, Stepko buna inanırdı. Oleq ondan tələb olunandan da artığını bacardı. O, Avropa Oyunlarını ümumilikdə 5 medalla başa vurdu. Bu, ilk Avropa Oyunlarında rekord idi. Stepkodan başqa heç bir idmançı ilk Avropa Oyunlarını 5 medalla başa vura bilmədi.

Oleq Avropa Oyunlarında ilk qızılını paralel qollarla olan



çıxışında qazandı. O, bununla yanaşı, fərdi çoxnövçülükdə və atla olan çıxışında gümüş, dayaqla tullanmada bürünc, bundan əvvəl isə kişilər arasında komanda çıxışlarında üçüncü olmuşdu.

### İKİ ÖLKƏDƏ ORDEN ALMIŞ 21 YAŞLI GƏNC

Stepko karyerasının pik nöqtəsində idi. O, bu uğurlara doğma vətənində yox, başqa ölkənin bayrağı altında nail olmuşdu. Ancaq Oleq yarışdan sonra müsahibəsində azərbaycanlı gəncləri bu idman növüylə məşğul olmağa çağırmaqla, sadəcə, özünü düşünmədiyini göstərdi: "Bundan sonra dünya bizdən qorxsun. Düzdü, bizi artıq tanıyır və qorxurlar, ancaq daha da qorxutmalıyıq. Övladlarınızı gimnastikaya gətirin. Bu, çox gözəl idman növüdür".

Oleqin Avropa Oyunlarındakı çıxışı ölkə rəhbərliyi tərəfindən də qiymətləndirildi. Belə ki, 21 yaşlı idmançı prezident İlham Əliyev tərəfindən Avropa Oyunlarında göstərdiyi nəticələrə və ölkədə gimnastikanın inkişafına sərf etdiyi əməyə görə "Şöhrət" ordeni ilə təltif edildi.

Ancaq bu, Stepkonun ilk ordeni deyildi. O, ilk ordenini vətəni Ukraynada almışdı. 2013-cü ildə Kazanda keçirilən Universiadada gümüş və bürünc, həmin il Moskvada təşkil edilmiş Avropa çempionatında isə qızıl medal qazanmış Stepko, "Danila Qalitskovo" ordeni ilə təltif edilmişdi.

### ÖZÜ GİMNAST OLSA DA...

Oleq idman gimnastikasıyla yanaşı, üzgüçülüklə məşğul olsa da, idmanda kumiri bu idman növlərindən heç birinin təmsilçisi deyil. Maraqlıdır ki, idmançı müsahibələrindən birində özündən cəmi bir neçə yaş böyük olan həmyerlisi - boksçu Vasili Lomaçenkonu özünə kumir seçdiyini deyib: "Kumir bir az geniş anlamdır. Sadəcə, öz nailiyyətləri ilə dünyada tanınmış və böyük uğurlar qazanmış insanlar var. Məhz həmin insanlar mənə nəticələr əldə etməyə stimul verirlər. Məsələn, boksçu Vasili Lomaçenko və digər bir neçə idmançı. Onlar artıq peşəkardırlar və tədricən yaxşı nəticələr göstərməyə başlayıblar".

Stepkonun maraqlı xüsusiyyətlərindən biri də, yaxınlarının ona tribunadan dəstək verməsini xoşlamamasıdır: "Yaxınlarım mənim çıxışlarımı internet vasitəsilə izləyib, dəstək olurlar. Valideynlərimə icazə vermirəm ki, məni tribunadan dəstəkləsinlər. Onlar uzaqdan mənə dəstək olanda, çıxış etmək daha rahat olur".

Elə Avropa Oyunlarında da belə oldu. Valideynləri gənc idmançının çıxışlarını məhz internet vasitəsilə izləyib, dəstək oldular.

### RİOYA DOĞRU...

Avropa Oyunlarından sonra Stepkonun istirahəti çox qısa çəkdi. Belə ki, onu qarşıda daha bir ciddi sınaq - dünya çempionatı gözləyirdi. Stepko bu sınaqdan da üzüağ çıxdı. Belə ki, Şotlandiyanın Qlazqo şəhərində keçirilən dünya birinciliyində çıxış edən Oleq, ölkəmizə dünya çempionatlarında ilk medalı qazandırdı. O, paralel qollarla çıxışını 3-cü pillədə başa vurdu. Stepko Şotlandiyada qazandığı medalla, həm də, bu il Rio-de-Janeyroda təşkil ediləcək olimpiya oyunlarına lisenziya qazandı.

Oleq 2016-cı ilə də möhtəşəm başladı. O, əvvəlcə Bakıda təşkil edilən dünya kubokunun "Challange" seriyasını 3 medalla başa vurdu. Paralel qollar üzərində hərəkətlərdə qızıl, dayaqla tullanmada gümüş, halqalarda isə bürünc medal qazandı.

Bu ilin mart ayında isə gənc gimnast Qətərin paytaxtı Dohada təşkil edilən "Challenge" seriyasına aid idman gimnastikası üzrə dünya kubokunu qızıl və bürünc medallarla başa vurdu.

Son uğurlardan sonra bir daha əminliklə demək olar ki, Stepko hazırda karyerasının pik nöqtəsindədir. O, idman gimnastikasında əvvəllər ağlımıza belə gəlməyən turnirlərdə bayrağımızı dalğalandırıb, himnimizi səsləndirib. Hazırda Oleqin qarşısında daha ciddi sınaq durur. Rioda təşkil ediləcək olimpiya oyunlarında da özünü göstərməli, bayrağımızı dalğalandırmalıdır. Artıq lisenziya qazanılıb. Qalır son nöqtəni qoymaq.

